Bakıda Gənclər və İdman Nazirliyinin və Azərbaycan Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə Azərbaycanın Dövlət Müstəqilliyi Gününə həsr olunmuş “Baku Open-2013” Beynəlxalq şahmat festivalı keçirilmişdir.
Azərbaycan Şahmat Federasiyasından AzərTAc-a bildirmişlər ki, festivalın “A” və “B” qruplarında ölkəmizlə yanaşı, 18 ölkədən 224 şahmatçı qələbə uğrunda mübarizə aparmışdır. Onlardan 33-cü beynəlxalq qrossmeyster, 28-i beynəlxalq usta və 9-u FİDE ustasıdır. Çempionatın “A” (güclülər) turnirində qalib adını hesabına yeddi xal yazan Rusiya şahmatçısı Pavel Smirnov qazanmışdır. Belaruslu Sergey Zhiqalko və Rusiya şahmatçısı Aleksey Dreev 6,5 xal toplayaraq ikinci-üçüncü yerləri bölüşdürmüşlər. Qadınlar arasında isə ən yaxşı nəticəni həmyerlimiz Nərmin Kazımova və İran şahmatçısı Atousa Pourkaşiyan (4,5 xal) göstərmişlər. Yarışın “B” qrupunda isə Fariz Əhmədov və Elxan Bayramov səkkiz xal toplayaraq birinci-ikinci yerləri bölüşdürmüşlər. Əlavə göstəricilərə görə Fariz Əhmədov birinci yerin sahibi olmuşdur. İsveçrə sistemi üzrə keçirilmiş turnirin ümumi mükafat fondu 50 min ABŞ dolları təşkil etmişdir.